## IOTA-nın nüvbəti «Təlim Forumu» Azərbaycanda keçiriləcək

21-23 mart tarixində İtaliyanın Roma şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) və İtaliyanın Gəlir Agentliyinin təşkilatçılığı ilə «Dəyişikliklər, problemlər və imkanlar» mövzusunda 9-cu Təlim Forumu keçirilmişdir. 30 dövlətin vergi orqanlarından 52 nümayəndənin iştirak etdiyi tədbirdə vergi administrasiyalarının təlim-tədris proqramlarının icra vəziyyəti, kadrların hazırlanması və inkişafı, vəzifələrin icrasında keyfiyyətin və səmərəliliyin təmin edilməsi, təlimin müasir formada təşkil olunması və müasir biliklərin genişləndirməsi və digər məsələlər müzakirə olunmuşdur. Forumun başlıca mövzusu IOTA-nın illik texniki iş proqramı çərçivəsində həyata keçirilən təlim-tədris prosesində yeni strateji istiqamətlər və yanaşmalarla bağlı olub. IOTA-nın ekspertləri ilə vergi orqanlarının vəzifəli şəxsləri arasında nəzərdə tutulmuş təlim məsələləri barədə geniş müzakirələr aparılmış və təcrubə mübadiləsi edilmişdir.

İtaliyanın Gəlir Agentliyinin İnsan Resursları Departamentinin direktoru Girolamo Pastorello və IOTA-nın eksperti Cerri Taylor IOTA-nın 2013-cü il üçün iş planını təqdim etmişlər. Məruzəçilər təlim prosesində tətbiq edilən yeni informasiya texnologiyaları (Web 2.0), sosial şəbəkələr, ayrı-ayrı ölkələrdə istifadə edilən yeni metod və üsullar və yaxşı təcrübələr barədə məlumat vermişlər.

Tədbirdə Azərbaycanı vergilər nazirinin Beynəlxalq münasibətlər və vergi ödəyicilərinə xidmət sahələri üzrə müşaviri Ələkbər Məmmədov və Beynəlxalq münasibətlər idarəsinin rəis müavini İlqar Əkbərli təmsil etmişlər. «Azərbaycan Respublikası Vergilər Nazirliyinin Təlim Strategiyası» mövzusunda təqdimatla çıxış edən Ə.Məmmədov ölkəmizin vergi sistemində aparılan islahatlar, elektron xidmətlər, təlim prosesi, tətbiq edilən təlim metodları barədə ətraflı təqdimat etmişdir. Təqdimatda Azərbaycanın Vergilər Nazirliyinin strateji məqsədlərindən birinin vergi orqanlarının tədris prosesi ilə bağlı olduğu qeyd edilmişdir. Nazirliyin 10 il əvvəl yaradılmış elm və təhsil ocağı statusuna malik Tədris Mərkəzində vergi orqanları əməkdaşlarının peşə hazırlığı, yenidən hazırlanması və ixtisaslarının artırılması, vergi sisteminin formalaşdırılması, inkişafı və hüquqi təminatına dair araşdırmalar, kadr siyasəti ilə bağlı təkliflərin işlənib hazırlanması, vergi sisteminin formalaşdırılması, inkişafı və hüquqi təminatına dair elmi tədqiqatların aparılması ilə bağlı sistemli tədbirlər həyata keçirilir. Mərkəzdə ixtisasartırma və ilkin hazırlıq kursları ənənəvi, kombinə edilmiş və elektron təhsil sistemi tətbiq edilməklə təşkil olunur. Son illərdə vergi orqanlarının təlim və tədrisinə, müasir dövrün tələblərinə uyğun kadr hazırlığına böyük əhəmiyyət verir, onların bilik və bacarıqlarının artırılması, tədris prosesində yeni texnologiyaların tətbiq olunması, sosial şəbəkələrdə, ayrı-ayrı ölkələrdə təlim prosesində istifadə edilən yeni metod və üsulların öyrənilməsi ilə əlaqədar treninqlər və seminarlar keçilir, kurslar təşkil olunur. Bu isə son nəticədə vergi orqanlarının ən müasir tədris üsullarını və informasiya texnologiyalarını mənimsəməsinə və bunun idarəetmədə tətbiq edilməsinə səbəb olur.

Forumda bildirilmişdir ki, son bir ildə vergi orqanı əməkdaşlarının təlim-tədris prosesi ilə bağlı Avropada ən müasir və tədris üçün bütün tələblərə cavab verən mərkəzləşdirilmiş 3 böyük elm və təhsil müəssisəsi yaradılmışdır. Onlar İtaliyanın Ferrara şəhərindəki Təlim Mərkəzi, Avstriyanın Vyana şəhərində yerləşən Vergi Administrasiyasının Tədris Korpusu və Azərbaycanın Şamaxı rayonundakı Tədris Mərkəzidir. Forum iştirakçılarına Vergilər Nazirliyinin Şamaxı rayonunda yerləşən Təlim Mərkəzinin rəsmi açılışı və fəaliyyətini əks etdirən film nümayiş olunmuşdur.

Tədbirdə IOTA-nın 2013-cü ildə növbəti «Təlim Forumu»nun Azərbaycanda keçirilməsi təklif edilmiş, iştirakçılar təklifi yekdilliklə dəstəkləmişlər.

E.CƏFƏRLİ